# BƏDİİ TƏSVİR SİSTEMİNDƏ PEYZAJ

**Günay Qarayeva**

*AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı*
*gunaygarayeva@gmail.com*

Bədii ədəbiyyatda təbiət yalnız mövzu və poetik obraz mənbəyi kimi deyil, həm də geniş mənada obrazlılığın yaradıcı komponenti kimi çıxış edir. Bu isə bütün təzahürləri, prosesləri və xüsusiyyətləri ilə peyzajın bədii aləmə daxil olmasıdır. Bəzən peyzaj bədii aləmdə yalnız təbiətin təsviri, görüntüsü kimi birtərəfli şəkildə götürülərək, ondan məhdudlaşdırılmış şəkildə danışılır və peyzaj elementlərinin, detal və vasitələrinin bədii-estetik funksionallığından söhbət açılmır. Peyzaj təsviri bədii aləmdə geniş və əhatəli olmasına baxmayaraq, peyzaj elementləri obrazyaradıcı xüsusiyyətləri ilə ona nisbətən çoxfunksionallıdır. Ona əsərin istənilən yerində rast gəlmək mümkündür. Bu baxımdan bədii aləmdə peyzajın yeri çoxcəhətlidir. O, bədii mətndə yalnız təbiətin şəkli, görüntüsü olaraq qalmır, bütün daxili məzmunu (proses, təzahür, hal-vəziyyət) ilə təbiətin özünü əks etdirir.

Müasir poeziyamızda təbiətin təfəkkür tərzinə çevrilməsi onun yeni estetik tərəflərini meydana çıxarır. Öz hiss və duyğularını, poetik aləmini lirik xarakter təbiətin xüsusi əlamət və keyfiyyətləri ilə deyil, bütövlükdə onunla eyniləşərək, bir vəhdətə çevrilərək verə bilir. "Mən bir dənizəm ki, eşqim səhərdir", "Səni düşünürəm, əzizim yenə", "Mənim dalğalarım xatirələrdir", "Qoy çatsın qəlbinin sahillərinə" və s. (N.Xəzri). Bədii mətn nümunələrində peyzaj elemenlərindən istifadədə əsasən iki istiqamət aparıcıdır:

1. Bədii portretin yaranmasında peyzajın poetik funksiyası;
2. Təbiətin obrazlaşdırılmasında yeni meyllər.

Bədii aləmdə peyzajın mahiyyətini iki əsas funksiya təyin edir. Onlardan biri təbiətin insan əlamət və keyfiyyətlərinin təyini kimi metaforik, digəri isə təbiətin insan keyfiyyətlərinin daşıyıcısı kimi antromorfik xüsusiyyətidir. Hər iki məqamda varlıqların bir-biri ilə qarşılaşdırılması, müqayisə, bənzətmə, keyfiyyət və xüsusiyyətlərin köçürülməsi vasitəsilə poetik ifadə və təsviri obrazlılıq yaradılır. Təbiət əlamət və keyfiyyətlərini insan üzərinə köçürməklə "peyzaj metoforizasiya"sından fərqli olaraq, insana məxsus keyfiyyətlərin təbiətlə əvəzlənməsi ilə mənzərə obrazlılığı yaranır.

Müasir poeziyada təbiətin ümumi məzmununda assosiasiya, şəxsləndirmə, antropomorfik xüsusiyyətlər, bədii müqayisə zənginliyi, obyekti mənalandırma və ümumiləşdirmə əsasında fəlsəfi mündəricə genişliyi diqqəti cəlb edən başlıca xüsusiyyətlərdəndir. Ayrı-ayrı üslubi yönümlərdə mövcud olan bu cəhətlər R.Rza, B.Vahabzadə, H.Arif, N.Xəzri, Q.Qasımzadə, M.Araz, M.Yaqub, H.Kürdoğlu, M.İsmayıl, M.Aslan və b. şairlərin şeirlərində fərqli bədiiləşmə prizmasından izlənilərək insanı dərk, onun ictimai-sosial mahiyyətini təbiətin məzmununda dəyərləndirmə meylinin poeziyaya yeni əxlaqi-estetik məzmun gətirməsi ilə diqqət çəkir.